

# ŞƏRQ qapısı


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 75 (23.962)

*23 aprel 2022-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


### *Rəsmi xronika*



Aprelin 22-də Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı – Zəfər Qurultayı işə başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qurultayda geniş nitq söyləyib.

Prezident İlham Əliyev bildirib ki, bu gün azad Qarabağda, azad Şuşada keçirilən Dünya Azərbaycanlılarının Qurultayının adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır.

Dövlətimizin başçısı vurğulayıb ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımız Azərbaycan ilə daim təmasdadırlar, Dövlət Komitəsi ilə təmasdadırlar və müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatları arasında koordinasiya da təkmilləşir. Bu da çox vacibdir. Xaricdə yaşayan gənc azərbaycanlılar həm İkinci Qarabağ müharibəsinin tarixini yaxşı bilməlidir, həm də bu həqiqətləri öz dostlarına çatdırmalıdırlar. Xaricdə yaşayan azərbaycanlıların fəaliyyəti, Azərbaycan maraqlarının müdafiə edilməsi, əlbəttə ki, dövlətimizi daha da gücləndirir. Azərbaycan dövləti öz fəaliyyətində həmişə xaricdə yaşayan azərbaycanlıların yaşayışı ilə maraqlanır, təmaslar qurur.

Prezident İlham Əliyev deyib: "Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz".

Qurultay işini panel iclasları ilə davam etdirib. Aprelin 23-də başa çatacaq Zəfər Qurultayında 65 ölkədən 400-dən çox diaspor nümayəndəsi və qonaq iştirak edir.

## Naxçıvanın turizm potensialı Mərkəzi Asiyada tanıdılmışdır

20-22 aprel 2022-ci il tarixlərdə Qazaxıstanın Almatı şəhərində "KİTF 2022 – Qazaxıstan Beynəlxalq Turizm Sərgisi" keçirilmişdir.




Dünyanın 15 ölkəsinin 250-yə yaxın turizm şirkəti və təşkilatının iştirak etdiyi sərgidə ölkələrin turizm imkanları və turizm məhsulları tanıdılaraq qarşılıqlı əməkdaşlıq imkanları müzakirə olunmuşdur. 2001-ci ildən etibarən hər il təşkil olunan "KİTF" sərgisi Mərkəzi Asiya üzrə ən böyük peşəkar turizm platforması hesab olunur. Sərgidə Azərbaycanın milli stendində 5 yerli turizm şirkəti, 2 mehmanxana qrupu, "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti, Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti və "Duzdağ" hotel iştirak etmişdir.

Qazaxıstan turizm şirkətləri, eləcə də digər Mərkəzi Asiya ölkələrindən olan şirkətlərin və turizm üzrə ixtisaslaşmış təşkilatların iştirak etdiyi sərgidə Naxçıvan Muxtar Respublikasının stendi qurulmuş, muxtar respublikanın turizm potensialı təbliğ olunmuşdur. Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin və "Nəqşicahan" Holdinq Şirkətlər Qrupunun əməkdaşları tərəfindən sərgi iştirakçılarına Naxçıvan Muxtar Respublikasının turizm potensialı və mövcud turizm məhsulları barədə geniş məlumat verilmiş, eyni zamanda muxtar respublikanın sağlamlıq turizm potensialı ziyarətçilərə təqdim olunmuşdur.

Stenddə muxtar respublikanın tarix-mədəniyyət abidələrinin fotoşəkilləri nümayiş etdirilmiş, diyarımızın turizm potensialı ilə bağlı videoçarxlar və Duzdağ Fizioterapiya Mərkəzinin möcüzəvi effekti sərgi iştirakçılarının böyük marağına səbəb olmuşdur. Həmçinin Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti tərəfindən hazırlanmış bukletlər, "Naxçıvan 4 fəsildə" kitabı, eləcə də muxtar respublikada fəaliyyət göstərən ho-



tellər haqqında çap məhsulları, həmçinin yerli istehsal məhsullarımızdan "Badamlı", "Sirab" mineral suları, Naxçıvan duzu beynəlxalq sərgidə nümayiş etdirilmişdir.

Sərgi çərçivəsində Qazaxıstan turizm şirkətləri, eləcə də digər Mərkəzi Asiya ölkələrindən olan şirkətlərin və turizm üzrə ixtisaslaşmış təşkilatların nümayəndələri ilə müxtəlif görüşlər keçirilmişdir.

Sərgi zamanı xarici turoperatorlara Naxçıvan Muxtar Respublikası haqqında geniş məlumat verilərək buradakı yerli turoperatorlarla əlaqələrin qurulmasına köməklik göstərilmişdir.

**Xəbərlər şöbəsi**

## Elmi əsərlərinin nəşri ilə fərqlənən professor-müəllim heyəti mükafatlandırılıb



*Aprelin 22-də Naxçıvan Dövlət Universitetində 2021-ci il üzrə elmi fəaliyyətinə görə fərqlənən universitet əməkdaşlarının mükafatlandırılma mərasimi keçirilib.*

Əvvəlcə professor-müəllim heyətinin beynəlxalq indeksli bazalarda və sahə indekslərində yer alan məqalələrindən ibarət sərgiyə baxış olub.

Tədbirdə çıxış edən universitetin rektoru Elbrus İsayev bildirib ki, muxtar respublikada təhsilə xüsusi diqqət yetirilir, onun inkişafına innovativ metodlarla yanaşılır. Muxtar respublikada böyük potensiala malik olan təhsil mühiti yeni inkişaf mərhələsindədir. Universitetin beynəlxalq reytinq cədvəllərində öz layiqli yerini tutması üçün nüfuzlu jurnallarda, beynəlxalq elmi indeks bazalarında nəşrlərin olması ən ümdə vəzifələrdəndir. Beynəlxalq elm platformalarına çıxışlarla bağlı Clarivate Analytics şirkəti ilə keçirilən təlimlərin önəmini xüsusilə vurğulayan Elbrus İsayev qeyd edib ki, bu nüfuzlu redaksiyalarda kitab nəşrinə nail olmaq məsələləri gələcək perspektivlər kimi önə çəkilib. Rektor universitet əməkdaşları adından təhsilə, elmi mühitə göstərilən dövlət qayğısına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq edib.

Universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru, dosent Seymur Talıbov ali təhsil ocağının inkişaf dinamikasından danışıb və qazanılan uğurları təhsilə, elmə göstərilən yüksək dövlət qayğısının xüsusi təzahürü kimi qiymətləndirib. Diqqətə çatdırılıb ki, professor-müəllim heyətinin əldə etdiyi nailiyyətlər onlara göstərilən yüksək etimadın bəhrəsidir. Universitetdə mövcud olan maddi-texniki baza, müasir tədris avadanlıqları, elmi tədqiqatların aparılması üçün qurulan laboratoriyaların təşkili kollektivə imkan yaradır ki, onlar elmi fəaliyyətlə daha ciddi məşğul olsun və öz elmi nailiyyətləri ilə beynəlxalq elmi bazalarda tanınan, istinad olunan müəlliflərdən olsunlar. Qeyd edilib ki, yaxın zamanda əməkdaşların Web of Science platformalarına daha asan çıxış etməsinə zəmin yaratmaq üçün universitetin həmin indeks bazasında qeydiyyatdan keçməsi təmin olunmaqla müəllimlərin beynəlxalq indeksli jurnallara birbaşa çıxışı da təmin ediləcək. Seymur Talıbov universitet əməkdaşlarını qazandıqları elmi uğurlar münasibətilə təbrik edib.

Elm və innovasiyalar bölməsinin müdiri, təhsilin idarəolunması, təftişi, planlaması və iqtisadiyyatı üzrə fəlsəfə doktoru Rza Məmmədov bildirib ki,



2021-ci ildə 8-i Web of Science, 3-ü Scopus, 14-ü sahə indeksli olmaqla universitetin 66 əməkdaşının 74 elmi məqaləsi nəşr olunub. Bu statistikanı ötən illə müqayisə etdikdə 10 faiz artım müşahidə olunmaqdadır. Vurğulanıb ki, nəşr olunan məqalələrin 60 faizi ingilis, 25 faizi rus, 8 faizi türk, 7 faizi isə Azərbaycan dilindədir. Bu məqalələr İngiltərə, Rusiya, Bolqarıstan, Hindistan, Ukrayna, Xorvatiya, Meksika, Peru, Türkiyə və Azərbaycan mərkəzli jurnallarda nəşr olunub.

Beynəlxalq münasibətlər və hüquq fakültəsinin dekanı, dosent Yusif Hüseynov nüfuzlu jurnallarda məqaləsi nəşr olunmuş universitet əməkdaşlarına göstərilən qayğıdan danışıb.

Sonra Web of Science, Scopus indeks bazalarında məqalə nəşr etdirən və məqalələrinə istinad sayı çox olan müəlliflərə plaket və pul mükafatı təqdim olunub. Beynəlxalq elmi bazalarda məqalə nəşr etdirən digər müəllimlər isə təşəkkürnamə və pul mükafatı ilə təltif ediliblər.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Ali təhsil müəssisəsi ilə qarşılıqlı əməkdaşlıq davam etdirilir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 25 iyun tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncamından irəli gələn vəzifələrin icrası istiqamətində təşkil edilən tədbirlər davam etdirilir. Aprelin 22-də Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq, Dövlət və bələdiyyə idarəetməsi ixtisasları üzrə təhsil alan tələbələrinin iştirakı ilə növbəti tədbir keçirilib.

Tədbiri giriş sözü ilə ədliyyə naziri, III dərəcəli dövlət ədliyyə müşaviri Daşqın Rəhimov açaraq bildirib ki, müvafiq ixtisasların hamiliyə verilməsi hüquqşünaslıq, dövlət və bələdiyyə idarəetməsi sahəsində ixtisaslı kadrların keyfiyyətli təhsil alması ilə bərabər, təcrübə və bacarıqlarının artırılması baxımından mühüm əhəmiyyət kəsb edir.



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışında vurğulayıb ki, muxtar respublikada ali təhsilə göstərilən hərtərəfli dövlət qayğısı pedaqoji və elmi kadrların yüksək hazırlığında, onların gələcəkdə peşə seçimində mühüm amilə çevrilib. Həyata keçirilən tədbirlər tələbələrin yüksəkixtisaslı mütəxəssislər kimi yetişməsinə, onların nəzəri, praktik bilik və bacarıqlarının artmasına müsbət təsirini göstərəcəkdir.

Sonra nazirliyin Təşkilat-nəzarət şöbəsinin rəisi, baş ədliyyə müşaviri, ekspert qrupunun rəhbəri Səttar Zamanov çıxış edib. Nazirliyin fəaliyyət istiqamətlərini özündə əks etdirən videoolent iştirakçılara təqdim edilib.

Tədbirdə nazirlik tərəfindən universitetin kitabxanasına 14 adda 17 hüquq ədəbiyyatı və 20 ədəd metodik vəsait hədiyyə edilib, suallar cavablandırılıb, tələbələr nazirliyin struktur bölmələri ilə tanış olublar.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***




# İqtisadiyyat





*Ölkəmizdə sahibkarlığın inkişafı, bazar iqtisadiyyatının formalaşdırılması sahəsində əsaslı şəkildə islahatların aparılması xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Aparılan siyasət nəticəsində 1990-cı ilin əvvəllərində böhran vəziyyətində olan Azərbaycan iqtisadiyyatı 1995-ci ildən inkişafa başlamış, ölkədə sahibkarlar təbəqəsi yaranmışdır. Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ardıcıl olaraq həyata keçirilən iqtisadi inkişaf strategiyası nəticəsində iqtisadiyyatın bütün sahələrində inkişaf ilbəil artır. Ölkəmizin ayrılmaz hissəsi olan muxtar respublikamızda da iqtisadiyyatın davamlı və tarazlı inkişafı təmin edilir. Bunun nəticəsidir ki, dövlətimizin başçısı cənab İlham Əliyev 2021-ci il mayın 10-da Naxçıvana səfəri zamanı muxtar respublikanı son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgə adlandırmışdır.*

*"Sənaye ili" – 2022*

## Muxtar respublika müəssisələrini keyfiyyətli karton qutu və taralarla təmin edən özəl sahibkarlıq subyekti – "Karton-Tara" Məhdud Məsuliyyətli Cəmiyyəti

Bu uğurların təməlində isə qəbul edilmiş məqsədli Dövlət proqramları, eləcə də diyarımızda dövlət-sahibkar münasibətlərinin inkişafı, aqrar sektora, kiçik və orta sahibkarlığa diqqət və qayğı dayanır. Özəl sektorun dəstəklənməsi bu sahənin əsas aparıcı qüvvəsi olan sahibkarların fəaliyyətinə də öz müsbət təsirini göstərib. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun muxtar respublika sahibkarları ilə mütəmadi görüşləri, onlara verdiyi tapşırıq və tövsiyələr bu sahədə yeni yanaşmaların mənimsənilməsində, sahibkarların fəaliyyətinin stimullaşdırılmasında mühüm rol oynayıb. Bu gün muxtar respublikamızda özəl sektor güclüdür, dayanıqlıdır və uğurla inkişaf edir. Bunun nəticəsidir ki, hazırda muxtar respublikada məşğul əhalinin 85 faizi özəl sektorda çalışır.



Muxtar respublikamızda dövlətin sahibkarlar üçün yaratdığı şəraitdən səmərəli istifadə edənlərdən biri də Zaur Məmmədovdur. Əvvəlcə gəlin Zaur müəllimi yaxından tanıyaq: – 1978-ci ildə Naxçıvan şəhərində anadan olan Zaur Məmmədov 1985-ci ildə Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbdə təhsil alıb, 1995-ci ildə Naxçıvan şəhərində fəaliyyət göstərən Fizika-Riyaziyyat Təmayüllü Liseyi bitirib. Həmin il Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsinin İstehsalın iqtisadiyyatı və idarə olunması ixtisası üzrə ali təhsil alaraq oranı 1999-cu ildə fərqlənmə diplomu ilə qurtarıb. Həmin il Naxçıvan Dövlət Universitetinin Beynəlxalq iqtisadi münasibətlər ixtisasına magistr pilləsi üzrə qəbul olunub, 2002-ci il tarixdə həmin ixtisası qırmızı diplomla bitirib. İlk əmək fəaliyyətinə 2001-ci il iyunun 27-də Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyində aparıcı-məsləhətçi olaraq başlayıb, bir il AMEA Naxçıvan Bölməsində çalışıb. 2009-cu ildən müstəqil olaraq sahibkarlıq fəaliyyəti ilə məşğul olur. Hazırda muxtar respublikanın bütün müəssisələrini karton qutu və taralarla təmin edən "Karton-Tara" Məhdud Məsuliyyətli Cəmiyyətin direktorudur.

Müsahibimlə müəssisənin yaranma tarixi, fəaliyyət məqsədi, keyfiyyət işi barədə həmsöhbət oluruq. Onun dediklərindən: – Ümummilli liderimiz Heydər Əliyevin 2002-ci il aprelin 25-də Prezident sarayında yerli sahibkarlarla görüşündə mən və müəssisəmizin yaradıcısı mərhum atam Samiddin Abbasoğlu da iştirak edirdi. Orada ulu öndərimiz ölkəmizin sosial-iqtisadi tərəqqisinin əsas məqamlarından danışaraq bildirdi ki, bizim sosial-iqtisadi inkişafımız sahibkarların fəaliyyətindən asılıdır. Çünki əgər iqtisadiyyat, yaxud onun böyük bir hissəsi özəlləşdirilibsə, deməki, iqtisadiyyatın böyük bir hissəsi sahibkarların əlindədir və onların səmərəli işləməsi Azərbaycanın iqtisadiyyatının inkişafını təmin edən amildir. Həmin tədbirdə dahi liderin sahibkarlığın inkişafı üçün verdiyi tapşırıq və tövsiyələrdən ruhlanaraq, eləcə də bu sahə üçün yaradılan şəraitdən faydalanaraq 2003-cü ildə müəssisəmizi qurduq və o gündən bu günə kimi fəaliyyətimiz artan istiqamətdə davam edir. Əsas iş prinsipimiz barədə onu deyə bilərəm ki, müəssisəmiz muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərinin karton qutu və taralara olan ehtiyacını tam şəkildə təmin edərək onların istehlak bazarında iştirakında və məhsullarının xarici bazarlara çıxarılmasında mühüm rol oynayır.

Müəssisənin ilkgünkü fəaliyyətinə qayıdan müsahibim qeyd edir ki, ilk olaraq kiçik bir təsərrüfat subyekti kimi icarəyə götürülmüş obyektdə fəaliyyətə başlamış, xırda mexaniki dəzgahlar vasitəsilə istehsal qurulmuşdur: – Muxtar respublikada bu sahəyə olan tələbatı, dövlətin diqqət və qayğısını nəzərə alaraq 2007-ci ildə Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondundan güzəştli kredit götürdük. Bununla, Naxçıvan şəhər Qaraxanbəyli kəndi ərazisində müasir avadanlıqlarla təmin olunmuş yeni müəssisə binası qurduq. İran İslam Respublikasından aldığımız avadanlıqlarla istehsal prosesini tam olaraq mövcud tələbatlara uyğunlaşdırdıq. İstehsal avadanlığı əsasında muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərinin tələbatının ödənilməsi istiqamətində ikirəngli çap olmaqla müxtəlif çeşidli altlıqlar, karton-taralar istehsal etməyə başladıq. Qısa zamanda nailiyyət qazandıq və 2010-cu ildə tərəfimizdən götürülmüş güzəştli kredit müəssisə tərəfindən tamamilə ödənildi.

Müəssisənin əsas məqsədi və keyfiyyət siyasəti barədə isə təcrübəli sahibkar bildirir ki, əsas prioritetlərimizdən biri verilən sifarişlərin vaxtında çatdırılması və müəssisələri keyfiyyətli qutu və taralarla təmin etməkdir. Buna nail olmaq üçün fəaliyyətimizi günün tələblərinə uyğunlaşdırmaq məqsədilə 2018 və 2019-cu illərdə müəssisəmizin yenilənməsi və genişləndirilməsi perspektivini ortaya qoyduq. Belə ki, həmin dövrdə müəssisəyə yeni avadanlıqların alınması və ərazinin istehsal sahəsinin 600 kvadratmetr böyüdülməsi istiqamətində işlər apardıq. Tehran şəhərində fəaliyyət göstərən bir müəssisə ilə müqavilə bağlayaraq uniloks, 4 çaplı və daykat kəsimli yeni bir avadanlıq alınaraq quraşdırıldı. Nəticədə, istehsalın daha da operativliyinə, verilən sifarişlərin vaxtında çatdırılması istiqamətində qarşıya qoyulmuş məqsədlərə nail ola bildik.

Müsahibənin gedişi sırasında öyrənirik ki, müəssisədə, əsasən, məhsulların paketlənməsi, qənd, şirniyyat, siqaret məhsullarının istehsalı üçün qutular, panel-radiator istehsalı üçün ətraf taralar, mineral suların paketlənməsində istifadə olunan taralar, bundan başqa, ailə təsərrüfatlarının tələbatını ödəmək üçün müxtəlif çeşidli tort, şirniyyat və digər qutular istehsal olunur. Bunun üçün xammal materialı "Azərbaycan Kağız və Karton İstehsalı Kombinatı" MMC-dən, İran İslam və Türkiyə respublikalarından alınır.

"Müəssisənin istehsal gücü nə qədərdir?" sualımın cavabında müsahibim deyir:

– Qeyd edim ki, yeni avadanlıqlar nəticəsində müəssisəmizin gün ərzində 16 min, ay ərzində 500 mindən çox qutu istehsal etmək imkanı vardır. Bu onu göstərir ki, məhsula olan ehtiyac tamamilə ödənilir. Müəssisəmiz mövcud qanunvericiliyə əsasən uyğunluq sertifikatı ilə təmin edilib. Hazırda 15 nəfər işçimiz var ki, onlar müxtəlif peşələr üzrə fəaliyyətlərini davam etdirirlər. İşçilər gün ərzində müvafiq geyim formaları, çay və yemək ilə təmin edilirlər.

Müəssisənin iştirak etdiyi sərgi və digər tədbirlər barədə məlumat verən Zaur Məmmədov qeyd edir ki, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən müəyyənləşdirilən, fəaliyyətimizə aid bütün yerli və beynəlxalq sərgilərdə iştirak etmişik. Əsasən, İran İslam Respublikasının Tehran, Təbriz, Şiraz, Məşhəd, Türkiyə Respublikasının İstanbul şəhərlərində təşkil edilən sərgilərdə iştirakımız olub. Həmin tədbirlərdə mövcud yenilikləri görüb onların istehsal sahəmizdə də tətbiq edilməsi istiqamətində müəyyən işlər həyata keçirmişik. Gələcək planlarımız barədə onu deyə bilərəm ki, beş il ərzində müəssisədə yeni karton və vərəqlərin istehsalı sahəsinin yaradılmasını qarşımıza məqsəd qoymuşuq. Burada da fəaliyyətimizin səmərəliliyi, istehsalın operativliyi bir daha öz əksini tapacaqdır. Məqsədimizə çatandan sonra müəssisənin tam təmərküzləşməsi başa çatacaqdır.



Müsahibim müəssisənin qazandığı uğurlarda muxtar respublikada sahibkarlara göstərilən diqqət və qayğını xüsusi olaraq qeyd edir: – Hər il Ali Məclis Sədrinin muxtar respublika sahibkarları ilə keçirdiyi görüşlərdə mən də mütəmadi olaraq iştirak edirəm. Həmin görüşlərdə muxtar respublika rəhbərinin tövsiyə və tapşırıqlarını, sahibkarlığın inkişafını istiqamətləndirən söhbətlərindən çıxardığımız nəticələri öz əməli işimizdə tətbiq edirik. Biz sahibkarların fəaliyyətinə daim dövlət qayğısı göstərilir. Müəssisəmizin fəaliyyəti üçün götürdüyümüz güzəştli kreditlərin çeklərini də muxtar respublikamızın rəhbəri şəxsən özü təqdim edib. Biz də mövcud potensialdan həmişə səmərəli istifadə etmişik. Göstərilən diqqət və qayğı nəticəsində burada fəaliyyət göstərən müvafiq qurumlarla işlərimizi qarşılıqlı əməkdaşlıq əsasında quraraq keçirilən tədbirlərdə iştirak edərək müsbət nəticələr qazanırıq. Muxtar respublikada sahibkarlığın inkişafına göstərdiyi diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığımı bildirirəm.

*Bu il fevralın 4-də Naxçıvan Biznes Mərkəzində muxtar respublika sahibkarları ilə görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxış edərək qarşıda duran vəzifələrə bağlı aid qurumlara müvafiq tapşırıqlar vermiş və demişdir: **"Dövlətin məqsədi aydındır: sahibkarlıq inkişaf etdirilməli, yeni iş yerləri açılmalı və yerli istehsalın həcmi artırılmalıdır. Hər bir sahibkar da ölkəmizdəki sabitlikdən, özəl sektora göstərilən dövlət qayğısından bəhrələnərək iqtisadi inkişafa öz töhfəsini verməlidir".** Məqalədən də aydın olduğu kimi, "Karton-Tara" MMC bu qayğıdan bəhrələnərək iqtisadi inkişafa öz töhfəsini verən özəl sahibkarlıq subyektlərindəndir. Bu onu göstərir ki, "Sənaye ili"ndə də özəl bölmədə yeni uğurlar qazanılacaqdır.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Torpağa bağlılıq halallığa bağlılıqdır

*Qədim çağlardan yurdumuz bağçılıq-meyvəçilik diyarı kimi tanınıb. Xalqımız yüzillik ağacı da, körpə fidanı da övlad kimi qoruyub, qayğısına qalıb, qocaman ağacların yerini versin deyə, yenilərini əkib, onların böyüyüb ərsəyə çatmasına qayğı ilə yanaşıb. Axı ağac da insan kimi qulluq istəyir.*



Müsahibim Sədərək rayon sakini Yavər Hüseynov ixtisasca aqronomdur. Kənddə adla deyilən bağbanlardandır. O, iki hektara yaxın bağa qulluq edir. Fəslin bağ qayğıları haqqında məlumat almaq üçün onunla həmsöhbət oluruq:

– Ölkəmizin iqlimi, məhsuldar torpaqları, digər təbii və əmək resursları meyvəçiliyin inkişafı üçün böyük imkanlar yaradır. Əlverişli torpaq-iqlim şəraiti olan bu ərazidə xalq seleksiyası yolu ilə çoxlu sayda meyvə, tərəvəz və üzüm sortları yaradılmasına, becərilməsinə əlverişli şərait var. "Bağa baxarsan bağ, baxmazsan dağ olar", – deyiblər. Gərək əziyyət çəkəsən ki, bəhrəsini də görəsən. Təsərrüfatçı bildirir ki, bağçılıqda bol məhsul əldə etmək üçün bağa ilboyu qulluq etmək lazımdır. Ağaclar vaxtında budanmalı, lazımi gübrələrlə təmin olunmalı və alaqlardan təmizlənməlidir. Cavan ağaclara qarşı isə xüsusilə diqqətli olmaq vacibdir. Onları ziyanvericilərdən, gəmiricilərdən qorumaq üçün lazımi tədbirlər görülməli, vaxtlı-vaxtında suvarılmalıdır.

Zəhmət adamı onu da deyir ki, qışda havaların soyuması ilə əlaqədar meyvə ağacları yarpaqlarını tökür və yuxuya gedir. Bu yazın əvvəlində tumurcuqların əmələ gəlməsi mərhələsinə kimi davam edir. Meyvə bitkiləri üzərində çoxlu növdə zərərli orqanizmlər müşahidə olunur. Onlar bitkilərin kökündən tutmuş meyvələrinə, toxumuna qədər bütün orqanlarına ziyan vururlar.

Zərərli orqanizmlərin növ tərkibi çox olduğundan, onlara qarşı müxtəlif mübarizə üsullarından istifadə edilir. Zərərvericilər, adətən, torpaqda, payızdan tökülmüş yarpaqların arasında, bitkinin quru budaq və qabıqlarında qışlayırlar. Qış mövsümündə zərərli orqanizmlərin qışladığı yerləri məhv etməklə, onların yayılma riskini azaltmaq mümkündür. Yerə tökülmüş yarpaqların, alaq otlarının sahədən kənarlaşdırılması, bitki diblərinin və cərgəaralarının dərin şumlanması, qurumuş budaqlardan, qabıqlardan təmizlənməsi, qışda bir dəfə sahənin bol suvarılması, yazda gövdələrin əhənglə ağardılması lazımdır. Bu suvarmaya qış suyu da deyilir. Bağ suvarıldıqdan sonra donma baş verir və bu, ziyanvericiləri məhv edir.

Zəhmətkeş bağban onu da diqqətə çatdırır ki, növbəti ildə bol və keyfiyyətli məhsul almaq istəyən təsərrüfatçılar, payız-qış dövründə becərmə işlərini yüksək səviyyədə aparmalıdırlar. Bunun üçün bağlar diqqətlə yoxlanılmalıdır. Budama zamanı ağacların quru, xəstəliklərlə sirayətlənmiş budaqları kəsilməlidir və həmin budaqlar sahədən kənarda yandırılmalıdır. Müsahibim onu da bildirir ki, bu gün bu bağdakı ağacların belə sağlam qalmasının əsas səbəbi bütün fəsillərdə onlara yaxşı qulluq edilməsi ilə bağlıdır. Vaxtında düzgün qulluq olunan ağaclar yaxşı da bar verir. Müsahibim Sədərəyin üzümünə qulluqla bağlı da danışaraq bildirir ki, havalar soyuyana yaxın üzümün meyvəsi yığılandan bir az sonra yarpaqları tamamilə tökülür. Naxçıvanın iqlimi qışda çox sərt olduğundan bütün üzüm kolları payızda budanır, bükülür və torpağa basdırılır. Yazda bu tənəkləri vaxtında torpaqdan çıxarmaq lazımdır. Əgər bu iş düzgün aparılmazsa, tənəklərə ziyan dəyə bilər. Dədə-babadan belə bir söz deyərlər: "Elə ki bayram aşını yeyib qurtardın, səhəri gün üzüm tənəkləri torpaqdan çıxarılmalıdır". Müsahibim bildirir ki, ağacları ziyanvericilərdən qorumaq üçün ilin bu vədəsində dərmanlama işi aparılır. Bu iş diqqətlə və vaxtında görülsə, daha yaxşı olar. Çünki məhsulun bol olması dərmanlamadan da asılıdır.

Belə bir el məsəli var: torpaqda izin olsun ki, süfrədə üzün olsun. Çünki torpaq adamı naümid buraxmaz. Və ən əsası, torpaq bu gün Naxçıvan kəndlisi üçün ən yaxşı iş yerinə çevrilib. Bacarıb dövlətimizin yaratdığı bu şəraitdən istifadə edənlər öz gün-güzəranlarını qurmaqla bərabər, muxtar respublikada kənd təsərrüfatının inkişafına da töhfələrini verirlər. Onu da qeyd etmək yerinə düşər ki, bu sahənin inkişafına əsas təkan verən amil Dövlət proqramlarının düzgün icrası ilə də sıx bağlıdır.

✍ **Ramiyyə ƏKBƏROVA**

*23 aprel Ümumdünya Kitab və Müəllif Hüquqları Günüdür*

# Kitaba hörmət xalqın mədəni inkişafını nümayiş etdirən amillərdəndir




*YUNESKO 1995-ci il noyabrın 15-də Parisdə keçirilən 28-ci sessiyasında hər il aprel ayının 23-nü Ümumdünya Kitab və Müəllif Hüquqları Günü elan etmişdir.*

Kitab bəşər mədəniyyətinin inkişafında mühüm rol oynayan ən böyük kəşflərdən biridir. Əfsanələr, əsatirlər, rəvayətlər, qəhrəmanlıq dastanları, əmək mahnıları əvvəllər şifahi formada yayılmış, sonralar isə daş, dəri və ağac üzərinə yazılaraq bu günə qədər gəlib çatmışdır. Əlifba və yazının yaranması, kağızın kəşfi, əlyazmalar, çapçılığın ixtira edilməsi, kitabxanaların yaranması kitabın inkişaf mərhələsində ən mühüm səhifələrdir. Kitabın insan həyatına daxil olması, kitabların çoxalması həm də müəlliflik hüququnun yaranması zərurətini meydana gətirmişdir. Orta əsrlərdə Azərbaycan şairləri öz şeirlərinin sonunda poetik adlarını işlətməklə müəlliflik hüququnun səmərəli qorunma formasını yaratmışlar.

***“Azərbaycan xalqının milli sərvəti onun intellektual potensialıdır, mədəniyyəti, ədəbiyyatıdır. Biz müstəqil dövlətimizi boş yerdə qurmağa başlamamışıq. Bizim iqtisadi potensialımız kimi başqa bir sərvətimiz – intellektual potensialımız da var. Dahi insanlarımız Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar”***, – deyən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev milli sərvətimiz olan mədəniyyətimizi, ədəbiyyatımızı, kitab nəşrini, bir sözlə, xalqımızın mənəvi səviyyəsini yüksək qiymətləndirmiş, kitab nəşri və müəlliflik hüququ sahəsində böyük işlər həyata keçirilmişdir.

Ötən əsrin 70-ci illərindən başlayaraq ulu öndərimizin rəhbərliyi ilə Azərbaycanda mətbəə və nəşriyyatlar yenidən qurulmuş, kitab nəşri ilə əlaqədar nəşriyyatların maddi-texniki bazası yaxşılaşmış, yaradıcı insanlara hərtərəfli qayğı göstərilmişdir. Müstəqillik illərində isə ulu öndər Heydər Əliyev tərəfindən kitab nəşri və müəlliflik hüququ sahəsində ardıcıl tədbirlər görülmüşdür. 1996-cı ildə “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında”, 1998-ci ildə “Kitabxana işi haqqında”, 2000-ci ildə “Nəşriyyat işi haqqında”, 2003-cü ildə “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikası qanunlarının qəbul edilməsi ilə bu sahədə zəngin qanunvericilik bazası yaradılmışdır. Ölkəmizdə Müəllif Hüquqları Agentliyi yaradılmış, Azərbaycan Respublikası “Ədəbi-bədii əsərlərin qorunması haqqında” Bern Konvensiyası və “Müəllif hüquqları haqqında” Ümumdünya Konvensiyasına qoşularaq geniş beynəlxalq əməkdaşlığa başlamışdır.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında, “Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında”, “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” sərəncamları, eləcə də ölkə Prezidentinin 2017-ci il 6 sentyabr tarixli “Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Fərmanı müəllif hüquqları sahəsində sistemli tədbirlərin həyata keçirilməsinə yeni imkanlar açmışdır.

Bu gün Azərbaycanın tarixi, mədəniyyəti, musiqisi, xalçaları, muğamları, xalq yaradıcılığı, ədəbiyyatı, memarlığı, milli mətbəxi və geyimləri, mədəni irsi haqqında nəşr olunan kitablar, elektron daşıyıcılar zəngin elmi və mədəni potensialımızın dünyada tanıdılması, xalqımızın müəlliflik hüququnun beynəlxalq aləmdə qorunması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərdir. Görülən işlərin bəhrəsi olaraq xalqımızın zəngin mədəniyyətinin və tarixinin ən gözəl inciləri YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. YUNESKO-nun Təcili Qorunma Siyahısına salınmış “Tənzərə” və “Köçəri” yallıları bu qədim və nadir sənətin də xalqımıza məxsusluğunun bir daha dünya ictimaiyyətinə çatdırılması baxımından böyük nailiyyətdir.

Xalqımıza böyük yaradıcı şəxsiyyətlər bəxş edən qədim Naxçıvan diyarında kitab nəşri və müəllif hüquqlarının qorunması sahəsindəki tədbirlər uğurla davam və inkişaf etdirilir, bu istiqamətdə görülən işlərin əhatə dairəsi genişlənir. ***“Kitabxanaya və kitablara olan diqqət hər bir ölkənin inkişaf və tərəqqisində başlıca şərtdir”***, – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə son illər muxtar respublikada fəaliyyət göstərən kitabxanaların yenidən qurulması, müasir binalara köçürülməsi, maddi-texniki bazalarının möhkəmləndirilməsi, elektron kitabxanaların istifadəyə verilməsi, kənd mərkəzlərində və ümumtəhsil məktəblərində zəngin kitabxana fondlarının yaradılması, nəşriyyatların müasir çap avadanlıqları və yeni bina ilə təmin olunması geniş mütaliə imkanları yaratmaqla yanaşı, həm də kitab nəşrinin sürətləndirilməsinə, müəlliflərin azad və maneəsiz fəaliyyətinə şərait yaratmışdır. Bu məqsədlə həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq Naxçıvan şəhərində Kitab Evi fəaliyyətə başlamış, Naxçıvan Muxtar Respublika Kitabxanasının binası əsaslı şəkildə yenidən qurularaq elektron kitabxana sistemi istifadəyə verilmişdir. Hazırda Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası üçün yeni bina tikilir, Şərur Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin binasında isə əsaslı yenidənqurma işləri davam etdirilir.




Qədim diyarımızda təhsil və elm müəssisələrində də kitabxanaların yenidən qurulması davamlı olaraq həyata keçirilir. Naxçıvan Dövlət Universitetində və Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində elektron kitabxanaların istifadəyə verilməsi bunun göstəricisidir. Muxtar respublikanın paytaxtında Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində audio və elektron kitabxana istifadəyə verilmiş, müvafiq kateqoriyadan olan insanların mütaliəsi üçün lazımi şərait yaradılmışdır.

Bu gün muxtar respublikada kitabxanaların maddi-texniki bazasının gücləndirilməsi ilə yanaşı, kitab fondlarının zənginləşdirilməsi istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 yanvar tarixli Sərəncamına əsasən muxtar respublikanın kitabxanalarına yüz minlərlə elmi və bədii ədəbiyyat paylanmışdır. Ötən il muxtar respublikanın mədəniyyət ocaqlarına 2 minə yaxın kitab və çap məhsulu daxil olmuşdur. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün istər Naxçıvan şəhərində, istərsə də ucqar dağ kəndlərində kitabxana işi müasir tələblər səviyyəsində qurulmuşdur. Bu da insanların kitaba olan marağının artmasına səbəb olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğı və himayəsi sayəsində nəşr olunmuş “Naxçıvan Ensiklopediyası”, “Naxçıvan Abidələri Ensiklopediyası”, “Naxçıvan xanlığı”, “Naxçıvan tarixi atlası”, “Naxçıvan tarixi” çoxcildliyi, “Naxçıvan folkloru”, “Naxçıvan teatrının salnaməsi”, “Naxçıvan milli geyimləri”, “Naxçıvanda arxeoloji tədqiqatlar”, “Nuh Peyğəmbər: dünya tufanı və Naxçıvan”, “Naxçıvan tikmələri”, “Uşaqlar və Günəş”, “Naxçıvan mətbəxi”, “Naxçıvan-Şərur el yallıları”, “Naxçıvan bəstəkarlarının uşaq mahnıları”, “Gülüstan türbəsi”, “Əlincəqala”, “Qarabağlar türbəsi”, “Naxçıvan muzeyləri”, “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018”, “Nemətullah Naxçıvani: taleyi və sənəti”, “Pedaqoji fikir tarixindən”, “Naxçıvanın xüsusi mühafizə olunan təbiət əraziləri”, “Yallılar dünəndən bu günə” və başqa kitablar tariximizin və milli dəyərlərimizin, eləcə də görkəmli şəxsiyyətlərimizin həyat və yaradıcılığının öyrənilməsində əvəzsiz rola malik dəyərli elmi mənbələrdir.



Muxtar respublikada müasir nəşriyyat və mətbəələrin fəaliyyət göstərməsi bu sahənin inkişafında mühüm rol oynayır. Naxçıvanda yaşayan yaradıcı şəxslər bu gün kitab nəşri sahəsində heç bir çətinliklə üzləşmirlər. Bütün bunlar isə müəllif hüquqlarına və kitab işinə göstərilən qayğının bariz nümunəsidir.

Uşaq və gənclərdə vətənpərvərlik, torpağa bağlılıq, ləyaqət, mərhəmət, xeyirxahlıq kimi mənəvi dəyərlərin inkişafında kitab əvəzsiz xəzinədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə “Oxunması zəruri olan kitabların Siyahısı”nın təsdiq edilməsi təkcə qədim diyarımızda deyil, ölkəmizin təhsil işçiləri, tanınmış ziyalılar tərəfindən də rəğbətlə qarşılanmışdır. Bu Sərəncam muxtar respublikamızda yüksək intellektual səviyyəyə malik nəslin formalaşdırılmasında, eləcə də mütaliə vərdişinin aşılanmasında mühüm əhəmiyyətə malikdir. Siyahıda yer alan kitablar yeniyetmə və gənclərin hərtərəfli inkişafına, gənc nəsildə vətənpərvərlik tərbiyəsinin, tarixə, milli kökə bağlılığının və siyasi dünyagörüşünün möhkəmləndirilməsinə, ailədə və ictimai mühitdə davranış qaydalarına yiyələnməsinə xidmət edir.

*İnsanın kamil şəxsiyyət kimi formalaşmasında, mənəvi aləminin zənginləşməsində, bədii təxəyyülünün, obrazlı və məntiqi təfəkkürünün, idraki bacarıqlarının inkişafında, hətta bir çox hallarda həyat yolunun müəyyənləşdirilməsində və vətəndaşlıq tərbiyəsində kitab və mütaliənin rolu mühüm əhəmiyyət kəsb edir. Kitablar həm də dilimizi sevdirməyin ən gözəl vasitəsidir. Ona görə də kitablar bəşəriyyətin mənəvi qidası kimi bütün zamanlarda gərəkli olacaq, tərəqqi və intibaha xidmət edəcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Könüllülərlə İş üzrə İdarəçilərin İnkişaf Proqramına start verilib



Azərbaycan Respublikası Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər Fondu və Azərbaycan Könüllü Təşkilatları İttifaqının (AKTİ) birgə təşkilatçılığı ilə muxtar respublikada könüllülük fəaliyyəti həyata keçirən qurumların könüllülər üzrə məsul şəxslərinin iştirakı ilə “Könüllülərlə İş üzrə İdarəçilərin İnkişaf Proqramı”na start verilib.

Naxçıvan şəhərindəki Gənclər Mərkəzində keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun Gənclər təşkilatları və gənclərlə iş şöbəsinin müdiri Arzu Qasımov Gənclər Fondu ilə Azərbaycan Könüllü Təşkilatları İttifaqı arasında imzalanmış əməkdaşlıq memorandumunun müvafiq bəndinə uyğun olaraq belə bir layihənin Naxçıvanda keçirilməsinin əhəmiyyətindən danışıb. Qeyd edilib ki, belə layihələrin könüllülərlə iş sahəsində yeni nailiyyətlərin əldə olunmasında, könüllülük fəaliyyətinin daha da genişlənməsində xüsusi rolu olacaqdır.

Azərbaycan Respublikası Gənclər Fondunun Gənclərlə iş şöbəsinin müdiri Seymur Hüseynov çıxış edərək ölkəmizdə könüllülük hərəkatının sürətlə inkişaf etdiyini, Azərbaycan Könüllü Təşkilatları İttifaqının fəaliyyəti çərçivəsində könüllülərin fərdi və peşəkar inkişafı istiqamətində əhəmiyyətli layihələrin həyata keçirildiyini qeyd edib.

Azərbaycan Könüllü Təşkilatları İttifaqının layihə meneceri Vüqar Əliyev bildirib ki, həyata keçirilən proqramın əsas məqsədi dövlət orqanlarında könüllü fəaliyyətinin tənzimlənməsi sahəsində peşəkarlığın artırılması, qabaqcıl işlək təcrübələrin sahə üzrə fəaliyyət göstərən təşkilatlarda tətbiq olunması, fərqli təşkilatlarda müvafiq sahədə çalışan şəxslər arasında fikir mübadiləsinin təmin olunması və müvafiq sahədə çalışan əməkdaşların sertifikasiyadan keçirilməsidir.

Sonra təlimlərə start verilib. Azərbaycan Respublikası Gənclər Fondunun Gənclərlə iş şöbəsinin müdiri Seymur Hüseynov tərəfindən “Azərbaycanın gənclər siyasəti” və zoom platforması üzərindən isə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Könüllülərlə iş sektorunun müdiri Sahil Məmmədli tərəfindən “Könüllülüyün qanunvericilik üzrə əsasları” mövzularında təlimlər keçirilib.

Qeyd edək ki, 22-24 aprel tarixlərini əhatə edəcək proqram çərçivəsində iştirakçılara peşəkar mütəxəssislərin təqdimatında müxtəlif mövzularda təlimlər keçiriləcək.

Proqramın sonunda keçirilən mövzuları əhatə edən imtahan təşkil olunacaq və iştirakçılar imtahan nəticələrinə uyğun olaraq könüllülərlə iş sahəsində nəzəri və praktik biliklərini təsdiqləyən xüsusi sertifikatlarla təltif ediləcəklər.

**Xəbərlər şöbəsi**

*Dünən Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Ümumdünya Kitab və Müəllif Hüquqları Günü münasibətilə tədbir keçirilmişdir.*

# Ümumdünya Kitab və Müəllif Hüquqları Günü qeyd edilib



Tədbirdə mədəniyyət nazirinin müavini Həsən Kərimov bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə son illər muxtar respublikada fəaliyyət göstərən kitabxanaların yenidən qurulması, maddi-texniki bazaların möhkəmləndirilməsi, elektron kitabxanaların istifadəyə verilməsi, kənd mərkəzlərində və ümumtəhsil məktəblərində zəngin kitabxana fondlarının yaradılması, nəşriyyatların müasir çap avadanlıqları və yeni bina ilə təmin olunması kitab nəşrinin sürətləndirilməsinə, müəlliflərin fəaliyyətinə şərait yaratmışdır. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə “Oxunması zəruri olan kitabların Siyahısı”nın təsdiq edilməsi təkcə qədim diyarımızda deyil, ölkəmizin təhsil işçiləri, tanınmış ziyalılar tərəfindən də rəğbətlə qarşılanmışdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Əliyev “Kitab xalqın mədəniyyətinin mənəvi daşıyıcısıdır”, Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru Tamella Əsgərova “Kitab bəşər mədəniyyətinin ən böyük kəşfidir” mövzularında çıxış etmişlər.

Sonda çap məhsullarından ibarət sərgiyə baxış olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*"Gözləmə, özün öz möcüzəni yarat, özün özünü sev, özün öz qəlbində ümidlərini böyüdüb başqalarına ümid ol. Səhər Günəş doğmasını gözləmə, özün öz gülüşünlə ruhunun qaranlığını məhv et. Amma əsla gözləmə. Çünki bu həyatda gözləyənlər yox, kədərə inad gülümsəyib, ayrılığa inad sevib, ölümə inad yaşayanlar qalibdir, unutma" söyləyir dördnəfərlik Hacıyevlər ailəsinin atasının təbirincə desək, böyük düşünən kiçik övladı, sağlamlıq imkanları məhdud yazar Nail Nəvai. "Şöhrət" ordenli şair mərhum Elman Həbib, Sərdar Zeynal, Mahir Səmədov, Sərvər Məsum, Nizami Əzizəliyev kimi söz sənətinin sədaqətli yolçuları ilə bir eldə – Ordubad rayonunun Tivi kəndində, 1996-cı il dekabrın 12-də dünyaya göz açan bu istedadlı gəncimizin mübarizə dolu 25 illik həyat yolunun keşməkeşlərini öz dilindən dinlədikcə müsahibimi könüldən alqışlayıb, əhsən deyir, kiçik manеə qarşısında təslim olan, pessimist duyğulara qapılan insanları qınaq hədəfinə çevirirəm düşüncəmdə...*

## Ruhda doğan günəşlə aydınlanan rəngli xəyallar...



"Rəngli xəyallar" kitabının müəllifi olan yazar Nail Nəvai ilə söhbətimiz zamanı olanları, keçənləri xatırlayır, onun həyat yoluna, yaradıcılıq dünyasına birgə səyahət edirik: – Zamanın sizə nə verəcəyi, nə alacağı bilinməz. Sadəcə, ümid et və inan hər şeyin yaxşı olacağına. Mən də belə etdim... Uşaqlıq çağlarımdan xatırlayacağım acılı-şirinli anlar çoxdur, ancaq əsas nüanslara toxunmaq istərdim. Gəlin hafizəmdə dərin iz buraxan məktəb illərimə qonaq edim sizi...

Köhnə məhəlləmizdəki məktəb tədrisə olduqca yararsız idi. Yağış yağan zaman sınıq dam örtüyündən siniflərə su dolur, soyuq və rütubət olurdu otaqlar. Bu səbəbdən dövlətimiz onu yenisi ilə əvəz etdi. Müasir məktəb binası bizim yeni köçüb gəldiyimiz məhəllədə inşa olunurdu. Sizcə bu təsadüf ola bilərdimi? Məncə yox. Uca Yaradan dualarımı eşitmişdi. O da istəyirdi oxuyam, təhsil alam, həyatla mübarizə aparam. Bunun üçün daim şanslar yaradır, yorulmağıma baxmayaraq, durmadan sınayırdı məni. Həyat mənə öncə yanlış olanı, sonra isə doğrunu öyrədib. Yıxılaraq qalxmağı, qorxudaraq qorxusuzluğu dolğun şəkildə izah etdiyi kimi...

– Uşaqlıqdan ən böyük qorxum insan kütləsi içərisində özümə yer edə bilməmək idi. 2005-ci ilin sentyabrında bu qorxduğum başıma gəldi. Daha doğrusu, böyük arzumu reallaşdırmağı bacardım. Əksər uşaqlar üçün sevincli, həyəcanlı keçən həmin günü həyatımın dönüm nöqtəsi, mübarizəminsə ən çətin mərhələsi sayırdım. Bəlkə də, mən elə zənn edirdim. Özümü heç gözləmədiyim bir anda 100-150 nəfər şagirdi olan məktəbin kiçik bir sinif otağında tapdım. Əvvəlcə bu mənə oyanmaq istəmədiyim gözəl bir yuxu və heç bitməyəcək xəyal kimi gəlirdi. Amma həqiqətdə bu, nə yuxu idi, nə də bitməyəcək bir xəyal. Artıq xəyalın qurduğum binada, məktəb partasının arxasında əyləşmişdim. İçərisində rəngli dəftər, qələm olan, özümə məxsus kiçik çantam, əynimdə məni tamam dəyişmiş, ipəkdən tikilmiş qara kostyum, boz ipək şalvar var idi... Məktəbə qədəm qoyduğum o günü hər dəfə xatırlayanda sanki yenidən yaşayıram, hafizəmin ən gözəl yerində dəyərli hədiyyə kimi bərk-bərk saxladığım həmin unudulmaz anları. Atamla birgə üz tutduğum məktəbin bir pilləsindən digər pilləsinə ayaqlarımı çətinliklə atsam da, ruhum qanadlanıb azad və qorxusuzca məni ümidli günlərə, xoşbəxt gələcəyə, inandıqlarıma doğru çəkirdi. İnamlı sabahlara uzanan bu yolda qarşılaşdığım çətinliklərdə, müalicə aldığım dönəmlərdə dövlətimin, valideynlərimin, həkimlərin, müəllimlərin üzərimdəki qayğısını, diqqətini hiss edirdim daim...

Doqquzuncu sinifdə səhhətimlə bağlı olaraq məktəbə getmədən, öz gücümə bacardığım qədər hazırlaşaraq buraxılış imtahanında iştirak etdim. Bundan sonrakı həyatımın çox hissəsini evdə keçirdim. Bu müddətdə düşünmək, özümü bir az da dərk etmək üçün kifayət qədər zamanım oldu. Bu zaman müddəti tək bir həqiqəti öyrətdi mənə. Xəyal qurub heç nə etməmək, ona doğru bir addım atmamaq sanki ən sevdiyin oyuncağını istəməyərək başqasına verib, sonra da onunla necə oynadığını kənardan seyr etmək kimidir... Təbii ki, mən də artıq hərəkət etməli, zamanın belə boş-boş, mənasız şəkildə axıb getməsinə icazə verməməli idim. Bəs ilk addımı necə atmalı, xəyallarıma doğru necə getməli idim? Bu suala cavab tapmaq elə də çətin deyildi, sadəcə, yarım olanı tamamlamalıydım. Yenidən oxumaq, yarım qalanı tam etmək istəyi ruhuma hakim kəsilirdi, gün ötdükcə daha da çox. Ancaq elə də asan olmayacağını da yaxşı bilirdim. Zatən uğura gedən yol hər zaman çətin və tikanlı döngələrdən keçir. Nəhayət, günlərin birində bu düşüncəmi ailəmlə paylaşdım. Öncə hər zaman olduğu kimi, tərəddüdlə yanaşdılar səhhətimlə əlaqədar. Amma mən özümə, bacaracağıma, ən əsası da inandıqlarıma inanırdım.

2017-ci ilin sentyabr ayında hazırlıq üçün Şahbuz rayonuna getdim. Xəyallarıma doğru atdığım bu addım məni xoşbəxt etdiyi kimi tərəddüd içərisində də buraxırdı. Çünki uzun zaman idi ki, elm, oxumaq kimi hava, su qədər vacib olan şeylərdən uzaq düşmüş, bildiklərimin çoxunu unutmuşdum. Hər şeyi yenidən, sıfırdan öyrənməli olacaqdım. Amma hər zaman beynimdə tez-tez düşündüyüm, gerçəkliyinə inandığım bir fikir vardı: itirdikcə qorxur, qorxduqca daha da itirir insan. Beləcə, içimdəki inam hissinin mənə qazandırdığı əzmlə, şövqlə çalışaraq istəyimə nail oldum, 2018-ci ildə Naxçıvan Musiqi Kollecinə qəbul olub, kitabxana informasiya təminatı ixtisası üzrə təhsil almağa başladım. Bu kimi uğurlar, bəlkə də, çoxuna adi, kiçik görünə bilər. Amma mənim üçün bu həm böyük nailiyyət, həm də xəyallarıma açılan ilk qapı idi. Bu uğur qəlbimdə hər şeyin yaxşı olacağı ümidini daha da artırır, arzularımı çiçəkləndirirdi.

Bax beləcə, dövlətimin bütün gənclər kimi mənim üçün də yaratdığı əlverişli şəraitdən istifadə edib müəllimlərimin dəstəyi ilə oxuyub bitirdim kolleci. Ötən il ilk kitabım da işıq üzü gördü. Məni məndən soraq almaq istəsəz mütləq o kitabı oxuyun, – deyərəm. Həyatımın, yaşadıqlarımın qısa xülasəsidi – "Rəngli xəyallar"...

Son olaraq oxuculara, xüsusilə də həmyaşıdlarıma, gənclərə xitabən deyirəm ki, yaxşılıq etməyi özünüzə vərdiş edin, pis və yaxşı deyə insanları təbəqəyə bölməyin. Çünki heç bir insan dünyaya pis və ya yaxşı olaraq gəlmir. Onlar sonradan insanın özü tərəfindən qazanılan daxili keyfiyyətlərdir. Hörmət, qayğı, sevgi. Bunlar paylaşdıqca çoxalan miras və ətrafınızdakı insanlara verə biləcəyiniz ən böyük mükafatdır. Xoşbəxt olmaq üçün elə də böyük şeylər göstərməyə ehtiyac yoxdur. Sadəcə, özünüzü kimsə ilə müqayisə etməyin, yalnızca gözəl daxili keyfiyyətlər qazandırın xarakterinizə, müsbət fikirlərlə, inam hissi ilə doldurun qəlbinizi. Düzdür, bəzən tükənir insan, yorulur, qırılır. Bütün rəngbərəng xəyalların yerini bir andaca böyük bir ümidsizlik alır. Ən doğmalarımız belə, yadlaşır həmin an. Böyük kütlə içərisində tənhalaşırıq. Amma əsla ümidimizi itirməməliyik. Ümid insan ruhunda doğan Günəş kimidir. Günəş necə gecənin qaranlığını həbs edib kainatı aydınladırsa, ümid də ruhun qaranlığını aydınladır. Ümidin Günəşdən tək fərqi isə Günəş hər səhər, ümidsə hər şey bitdiyini zənn etdiyin an doğur:

*Ümid elə, bir az da gül,*
*Kənara at dərdi, qəmi.*
*Düşün ruhun bir dənizdi,*
*Sən dənizə aşiq gəmi.*

Gənc istedadlı yazarımız Nail Nəvainin 25 illik ömür kitabının səhifələrini vərəqlədik. Onunla qısa söhbətimiz, birgə nəzər saldığımız həyat və yaradıcılıq yolu məndə ondakı bu mübariz yaradıcı ruhun, əzmkar istəyin, istedad və bacarığın nə qədər dəyərli olduğu qənaətini yaratdı. Hamıya nəsib olmayan o məziyyətlərin hər zaman həssas qəlbli şairimizin həyat yolunu, gələcəyini nura qərq etməsi, ruhunda doğan Günəşin rəngli xəyallarını bahar təravətinə bürüməsi diləyi ilə...

**✍ Nail ƏSGƏROV**

## "Reproduktiv sağlamlıq və ailə dəyərləri" mövzusunda tədbir keçirilib



Ordubad rayonunun Dəstə kəndində keçirilən tədbiri rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli açıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova muxtar respublikada həyata keçirilən dövlət ailə, qadın siyasətindən bəhs edib. Çıxışda ailənin möhkəm olmasında qadınların sağlamlığının qorunması, yeni nəslin sağlam doğulması və böyüməsi üçün ailə planlaşdırılması məsələsinə xüsusi diqqət verilməsi, erkən nikahların fəsadları, sağlam uşaqların doğulması üçün qadınların hamiləlik dövründə müvafiq analizlərdən keçirilməsi, nikahdan əvvəl irsi qan xəstəliklərinin, virusların yoxlanılmasının vacibliyi haqqında tədbir iştirakçılarına ətraflı məlumat verilib.

Ramilə Seyidova qeyd edib ki, Ordubad rayonu üzrə 18025 uşaq vardır ki, bu uşaqlardan da 158-i sağlamlıq imkanları məhdud uşaqlardır. Muxtar respublika üzrə 1909 sağlamlıq imkanları məhdud uşaqlar vardır ki, bu uşaqların da 8,27 faizi Ordubad rayonunun payına düşür. Ordubad rayonunun Dəstə kəndi üzrə 21 sağlamlıq imkanları məhdud uşaq vardır ki, bu uşaqlardan 16 uşaq anadangəlmə, 5 uşaq isə qazanılma səbəbindən sağlamlığını itirmişdir.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin dosenti, ginekoloq Gültəkin Əliyeva çıxış edərək uşaqların sağlamlıq imkanları məhdud olaraq doğulmasına səbəb olan əsas amillər mövzusunda slayd vasitəsilə ətraflı məlumat verib.

Sonda suallar cavablandırılıb, maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## İxtisasartırma kursları yekunlaşıb

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin 2022-ci il İş planına əsasən Ordubad Texniki Peşə və Sürücülük Məktəbində Kabel lehimləyici və rabitə montyoru üzrə ixtisasartırma kurslarında təhsil alan müdavimlərə rabitə avadanlıqlarının əsasları, avtomat telefon stansiyalarının iş prinsipi, rabitə xətlərinin yoxlanma qaydaları, paylayıcı şkaf və kabel qurğularının montajı, elektrotexnika, əməyin mühafizəsi, təhlükəsizlik qaydalarına əməl edilməsi, peşə etikası barədə dərslər tədris olunub.

2 ay davam edən kursu 11 müdavim bitirərək müvafiq hüquqi sənədlə (sertifikat) təmin olunublar.

Qeyd edək ki, 2022-ci il ərzində Şahbuz, Culfa və Kəngərli Rayon Rabitə idarələri olmaqla, ümumilikdə, 34 rabitə əməkdaşının Naxçıvan Regional Peşə Tədris Mərkəzində cəlb olunduğu kurslar da yekunlaşmaq üzrədir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Təlimlər aparılıb



*Muxtar respublikanın müxtəlif təşkilatlarından maliyyə və mühasibat işçiləri xəzinədarlıq əməliyyatları üzrə sənədlərin elektron tərtibi sistemində olan yeniliklərlə bağlı təlimlərə cəlb olunub.*

Bununla bağlı Maliyyə Tədris Mərkəzində keçirilən təlimdə sistemdə qurulan yeni modullar vasitəsilə ödəniş tapşırıqları sənədlərinin sistem üzərindən işlənilməsi qaydalarında olan dəyişikliklər, "Kassa xərclərinin sifarişi" sənədində olan yeniliklər və "Xərc cədvəli" modulu təlim iştirakçılarına praktik olaraq izah edilib.

Nazirliyin əməkdaşı Vüsal Məmmədov tərəfindən sistemdə aparılmış müvafiq dəyişiklik və yeniliklərin mahiyyəti iştirakçıların diqqətinə çatdırılıb.

Sonda nazirliyin Xəzinə, Müasir texnologiyalar və avtomatlaşdırılmış idarəetmə sistemləri şöbələrinin əməkdaşları tərəfindən təlim iştirakçılarını maraqlandıran suallar cavablandırılıb və onların təkliflərinin növbəti sistem yenilənməsi zamanı nəzərə alınacağı bildirilib.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

## Basketbol komandamızdan inamlı qələbə



Naxçıvan Muxtar Respublika Basketbol Federasiyasının təşkilatçılığı ilə Naxçıvan Dövlət Universiteti ilə İğdır Universitetinin tələbələrdən ibarət basketbol komandaları arasında yoldaşlıq görüşü keçirilib.

İğdır Universitetində keçirilən görüşdən öncə çıxış edən universitetin rektoru Mehmet Hakkı Alma Naxçıvan Dövlət Universiteti ilə olan əlaqələrdən bəhs edib. Qeyd olunub ki, Türkiyə və Azərbaycan arasında təhsil sahəsində də mövcud olan uğurlu əməkdaşlıq hər iki universitetin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. Mehmet Hakkı Alma İğdır Universiteti adından Naxçıvan Dövlət Universitetinin Həmkarlar İttifaqı Komitəsinin sədri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Elşən Məmmədova hədiyyə təqdim edib.

Yoldaşlıq görüşünə gəlincə daha üstün oyun sərgiləyən Naxçıvan komandası meydanı 46:42 hesablı qələbə ilə tərk edib.

Sonda universitet rektoru Mehmet Hakkı Alma qalib komandaya kubok təqdim edib.

Naxçıvan şəhər "N" hərbi hissədə Naxçıvan şəhər tam orta məktəblərinin komandaları arasında "Şahin" hərbi-idman oyunu keçirilib.

## Naxçıvanı təmsil edəcək komandalar məlum olub



Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Əlahiddə Ümumqoşun Ordu, şəhər Təhsil Şöbəsi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin təşkil etdiyi, 6 tam orta məktəb komandasının mübarizə apardığı oyunda 9 nömrəli tam orta məktəbin komandası bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. 1 nömrəli tam orta məktəbin komandası ikinci, 14 nömrəli tam orta məktəbin komandası isə üçüncü olub.

Sonda qalib komandalar təşkilatçıların diplom, fəxri fərman və kubokları ilə mükafatlandırılıblar.

Qeyd edək ki, I və II yerin qalibləri olan 9 və 1 nömrəli tam orta məktəblərin komandaları aprel ayında keçiriləcək Naxçıvan Muxtar Respublika zona birinciliyində Naxçıvan şəhərini təmsil edəcəklər.

**✍ Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 348